

Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır.
Heydər ƏLİYEV

# FÖVQƏLADƏ HALLAR
Nazirliyinin qəzeti

Newspaper of MES    Газета МЧС

№ 16 (614) 4 may 2019-cu il   Qəzet 2006-cı il iyunun 15-dən çıxır   www.fhn.gov.az/newspaper/


## Azərbaycan Prezidenti İlham Əliyev Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak edib

***Mayın 2-3 tarixlərində Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib.***

Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər.



Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksəksəviyyəli rəsmiləri iştirak ediblər.

2008-ci ildən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" 10 il ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yarada bilib. Ötən müddət ərzində Forumun coğrafiyası çox genişlənib. Nəticədə tədbirə qoşulan qurumların sayı xeyli artıb. Budəfəki foruma Latın Amerikası ölkələrindən tutmuş Səudiyyə Ərəbistanı, Böyük Britaniya kimi dövlətlərin təmsilçiləri qatılıblar. Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində insanlar arasında həmrəylik yaratmaqda və müxtəlif icmalarda zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizədə mədəniyyətlərarası dialoqun mühüm rolu öyrənilir.

Dövlətimizin başçısı V Dünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində nitq söylədi.

Prezident İlham Əliyev bu mötəbər Foruma dünyanın 100-dən çox ölkəsindən 500-dən çox nümayəndənin qatıldığını bildirdi. Dövlətimizin başçısı Azərbaycanda əsrlər boyunca müxtəlif dinlərin, etnik qrupların birgə yaşadığını, ölkəmizdə daim dini tolerantlığın hökm sürdüyünü vurğuladı. Respublikamızda multikulturalizmin dövlət siyasətinin mühüm tərkib hissəsi olduğunu qeyd edən Prezident İlham Əliyev 2016-cı ilin Azərbaycanda multikulturalizm, 2017-ci ilin isə İslam həmrəyliyi ili elan edildiyini bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, dünyada multikulturalizmin tendensiya halını alması beynəlxalq səviyyədə sülhə, tərəfdaşlığa vacib töhfə olardı. Bu baxımdan, multikulturalizm və bu yöndə Azərbaycanda keçirilən digər silsilə beynəlxalq tədbirlər mühüm əhəmiyyət kəsb edir. Dövlətimizin başçısı vurğuladı ki, Bakıda keçirilən növbəti Forum çərçivəsində aparılacaq müzakirələr, fikir mübadiləsi ümumi məqsədlərə xidmət edəcək. "Bakı Prosesi"nin BMT və digər mötəbər təşkilatlar tərəfindən dəstəkləndiyini deyən Prezident İham Əliyev burada qəbul edilən qərarların əhəmiyyətindən danışdı. Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycanın müstəqillik baxımından gənc olmasına baxmayaraq, sürətlə inkişaf etdiyini diqqətə çatdıran Prezident İlham Əliyev dövlət siyasətinin dünya ölkələri ilə əməkdaşlığın və tərəfdaşlığın genişləndirilməsinə yönəldiyini vurğuladı. Ölkəmizin həyata keçirdiyi nəhəng layihələrə toxunan dövlətimizin başçısı boru kəmərləri vasitəsilə Xəzər dənizinin Qara dənizlə birləşdiyini, Avropanın enerji təhlükəsizliyinə xidmət edən bu kəmərlərin, həmçinin Azərbaycanın təşəbbüsü ilə yaradılan beynəlxalq nəqliyyat dəhlizlərinin həm də ölkələr və xalqlar arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət etdiyini dedi. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verdi və bu münaqişənin yaratdığı problemlərə baxmayaraq, Azərbaycanın sürətlə inkişaf etdiyini söylədi. Dövlətimizin başçısı Forumun işinə uğurlar arzuladı və müzakirələrin səmərəli olacağına əminliyini ifadə etdi.

Sonra qədim sivilizasiyalara və müasir Azərbaycandakı tolerantlıq mühitinə həsr edilmiş videoçarx nümayiş olundu.

Tədbirin moderatoru Forumun yüksək səviyyədə təşkilinə və dərin məzmunlu çıxışına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Qeyd etdi ki, "Bakı Prosesi" sülhsevər qüvvələri gücləndirməklə münaqişələri aradan qaldırmağa kömək edən prosesdir.

Forumda çıxış edən BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinos ilk dəfə möhtəşəm Bakı şəhərində olmasından son dərəcə məmnunluğunu ifadə etdi. Bildirdi ki, BMT- nin Sivilizasiyalararası Alyansı Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılmış "Bakı Prosesi"-nin tərəfdaşıdır. "Birlik Bakı Prosesi"nin ruhudur", - deyən Migel Moratinos əlavə etdi ki, Bakı BMT-nin Sivilizasiyalararası Alyansının habına çevrilə bilər. O, dünyada baş verən hadisələr fonunda bu beynəlxalq mötəbər tədbirin vaxtında keçirildiyini vurğuladı və Forumda müzakirə olunacaq məsələlərin əsas istiqamətlərindən danışdı.

UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Naşif dünyada multikulturalizmin təbliğində və bəşəri dəyərlərin bərqərar olmasında Prezident İlham Əliyevin və ölkəmizin rolunu xüsusi vurğuladı. Bildirdi ki, bəşəriyyətin başlıca hədəfləri müsbət dəyişikliklər, insan hüquqları, dayanıqlı inkişaf və müxtəlifliyin təmin edilməsi olmalıdır. Nada Al-Naşif bu istiqamətdə UNESCO xətti ilə də silsilə tədbirlərin həyata keçirildiyini dedi, həmin mötəbər beynəlxalq qurumun mədəniyyətlərarası dialoqun daha səmərəli olmasına töhfələrini əsirgəmədiyini diqqətə çatdırdı.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymin Bakı Forumunun yüksək səviyyədə təşkilinə və bu mühüm tədbirə dəvətə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi. O, bu tədbirin Qərblə İslam dünyası arasında mədəniyyətlərarası dialoqa mühüm töhfə olduğunu vurğuladı. İslam Əməkdaşlıq Təşkilatının Baş katibi mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun çox zəruri olduğunu və bütün ölkələrin bu istiqamətdə səylərini birləşdirmələrinin vacibliyini dedi. O, Prezident İlham Əliyevin mədəniyyətlərarası dialoqun gücləndirilməsi işinə daim sadiqlik nümayiş etdirdiyini vurğuladı və Foruma uğurlar arzuladı.

Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoni Azərbaycanın mədəniyyətlərarası dialoqda aparıcı dövlətlərdən biri olduğunu bildirdi. O, "Bakı Prosesi"nin uğur tarixçəsinə çevrildiyini xüsusi vurğuladı. Avropa Şurasının dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun gücləndirilməsi, gənclərin maarifləndirilməsi və digər istiqamətlərdə kompleks iş apardığını deyən Qabriella Battaini-Draqoni bu baxımdan Bakı Forumunun mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırdı.

ISESCO-nun Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri Bakı Forumunun dünyanın ən nüfuzlu tədbirlərindən biri olduğunu dedi. O, indiki dövrdə dünya liderlərinin siyasi iradə göstərməsinin vacibliyini diqqətə çatdırdı, bu baxımdan Prezident İlham Əliyevin nümunəvi mövqe nümayiş etdirdiyini xüsusi vurğuladı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq birliyin ədalətsiz mövqe tutduğunu, bunun yolverilməz olduğunu deyən Əbdüləziz Osman əl-Tuveycri dünyanı Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına dəstək verməyə çağırdı və Forumun işinə uğurlar arzuladı.

***

Sonra insanları sülhə, dialoqa, həmrəyliyə, firavan dünya qurmağa çağıran "Necə gözəl bir dünya" mahnısı ifa edildi.

***

Sonda xatirə şəkli çəkdirildi.

## Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib



***Aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.***

Dövlətimizin başçısı İlham Əliyev giriş nitqində keçən il prezident seçkilərindən sonra islahatların yeni mərhələsinin başladığını və onun icrası üçün məqsədyönlü addımlar atıldığını bildirdi. "İslahatlara alternativ yoxdur", - deyən Prezident İlham Əliyev vurğuladı ki, son 15 ildə Azərbaycan qədər dünyada inkişaf edən ikinci ölkə yoxdur.

Birinci rübdə büdcə daxilolmalarının artdığını, bununla da əlavə maliyyə resursunun formalaşdığını deyən dövlətimizin başçısı ilin əvvəlindən ümumi daxili məhsulun, sənaye istehsalının, qeyri-neft sənayesinin, kənd təsərrüfatının, əhalinin gəlirlərinin artdığını, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulduğunu dedi. Qeyd etdi ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 25-ci yerə layiq görülüb və 10 ən islahatçı ölkə arasındadır. İlin əvvəlindən böyük həcmli sosial paketin icra edildiyini deyən Prezident İlham Əliyev minimum əməkhaqqının, minimum pensiyaların, məcburi köçkünlərə verilən müavinətlərin, tələbələrin təqaüdlərinin və digər sosial müavinətlərin artdığını bildirdi, problemli kreditlərlə bağlı məsələnin və vaxtilə tikilən, lakin istismara qəbul edilməyən binalarla bağlı yaranan problemin həll olunduğunu vurğuladı.

"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və vətəndaşın rifahı üçün biz əlimizdən gələni edirik", - deyən Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının əhəmiyyətindən danışdı.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edərkən dövlətimizin başçısı bildirdi ki, bu məsələ ilə bağlı Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və münaqişə ölkəmizin ərazi bütövlüyü, suverenliyi çərçivəsində, beynəlxalq hüququn normalarına uyğun həll olunmalıdır.

Sonra Prezidentin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirov, kənd təsərrüfatı naziri İnam Kərimov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev görülən işlərlə bağlı məruzə etdilər.

Prezident İlham Əliyev yekun nitqində hazırda iqtisadiyyatın yeni inkişaf strategiyasının hazırlandığını, ölkədə aparılan islahatların beynəlxalq qurumlar tərəfindən dəstəkləndiyini bildirdi. Dövlətimizin başçısı ilin sonuna qədər elektrik enerjisi, qazlaşdırma, içməli su, meliorativ tədbirlər, xarici sərmayələrin cəlbi, məcburi köçkünlər və şəhid ailələrinin yeni mənzillərlə təmin olunması ilə bağlı görüləcək işlərdən danışdı. Son 15 ildə ölkədə 2 milyon yeni iş yerinin yaradıldığını, əhalinin sayının 10 milyona çatdığını, bunun da qarşıda yeni vəzifələr qoyduğunu deyən Prezident İlham Əliyev bildirdi ki, bu il də sosial infrastruktur layihələrinin icrası diqqət mərkəzində saxlanılacaq. Ağsu, İsmayıllı və Şamaxı rayonlarında baş verən zəlzələnin fəsadlarının uğurla aradan qaldırıldığını deyən dövlətimizin başçısı Azərbaycan vətəndaşlarını əmin etdi ki, dövlət hər zaman onların yanında olacaq.

Sonda Prezident İlham Əliyev 2019-cu ilin də xalqımız üçün uğurlu olacağına əminliyini ifadə etdi.

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi barədə" 2006-cı il 19 aprel tarixli 394 nömrəli və "Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2014-cü il 17 noyabr tarixli 349 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsinin sadələşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 460 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli 394 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 326; 2008, № 2, maddə 50, № 4, maddə 260, № 6, maddə 508; 2009, № 9, maddə 687, № 12, maddə 983; 2010, № 2, maddələr 83, 85; 2011, № 2, maddələr 85, 93; 2012, № 10, maddə 955; 2014, № 5, maddə 469, № 10, maddə 1181, № 12, maddə 1575; 2016, № 11, maddə 1796; 2017, № 1, maddə 62, № 3, maddə 357, № 9, maddə 1648, № 11, maddə 2017, № 12 (I kitab), maddə 2300; 2018, № 4, maddə 676, № 7 (I kitab), maddə 1452) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə"nin 8.21-ci bəndinə "prosesində" sözündən sonra "qanunvericiliklə müəyyən edilmiş hallarda" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 noyabr tarixli 349 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1389; 2016, № 11, maddə 1803; 2017, № 4, maddə 546) ilə təsdiq edilmiş "Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.2-ci bənddə "və" sözü ", tikintiyə icazədə tikinti işlərinin başlanılması üçün əlavə şərtlər nəzərdə tutulduqda isə" sözləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 2.5-1-ci bənd əlavə edilsin:

"2.5-1. Məcəllənin 89.1.1-ci, 89.1.3-cü və 89.1.7-ci maddələrində nəzərdə tutulan tikinti obyektlərinə münasibətdə dövlət nəzarəti yalnız özülün quraşdırılması mərhələsində həyata keçirilir.";

2.3. 2.12-ci bəndə "obyektlərin," sözündən sonra "habelə Məcəllənin 89.1.1-ci, 89.1.3-cü və 89.1.7-ci maddələrində nəzərdə tutulan tikinti obyektlərinin," sözləri əlavə edilsin və həmin bənddə "tikintisi üçün" sözləri "tikintisinə başlamaq üçün" sözləri ilə əvəz edilsin;

2.4. 2.14-cü bəndə "qeydlər aparılmaqla" sözlərindən sonra "(bu Qaydaların 2.12-ci bəndində müəyyən edilən tikinti obyektlərinə münasibətdə istisna olmaqla)" sözləri əlavə edilsin;

2.5. 2.16-cı bəndə "qeydlər aparmaqla" sözlərindən sonra "(bu Qaydaların 2.12-ci bəndində müəyyən edilən tikinti obyektlərinə münasibətdə istisna olmaqla)" sözləri, "(podratçıdan)" sözündən sonra isə "yazılı şəkildə" sözləri əlavə edilsin;

2.6. 2.19-cu bəndin birinci cümləsinə "qeydlər aparılmaqla" sözlərindən sonra "(bu Qaydaların 2.12-ci bəndində müəyyən edilən tikinti obyektlərinə münasibətdə istisna olmaqla)" sözləri, "(podratçıdan)" sözündən sonra isə "yazılı şəkildə" sözləri əlavə edilsin;

2.7. 3.1.2-ci yarımbənddən "və xüsusi nişanın" sözləri çıxarılsın;

2.8. həmin Qaydalara əlavə ¬¬¬- "Tikintidə dövlət nəzarəti jurnalı"nda "Qeydlər"in 1-ci hissəsində "və" sözü ", tikintiyə icazədə tikinti işlərinin başlanılması üçün əlavə şərtlər nəzərdə tutulduqda isə" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 1 may 2019-cu il.**

FÖVQƏLADƏ HALLAR
FHN
№ 16 (614)

# Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov Monteneqronun Daxili İşlər naziri ilə görüşüb





***Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri general-polkovnik Kəmaləddin Heydərov mayın 3-də Monteneqronun Daxili İşlər naziri Mevludin Nuhodjiçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Qonaqları səmimiyyətlə salamlayan nazir Kəmaləddin Heydərov rəhbərlik etdiyi qurumun fəaliyyəti, o cümlədən fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində görülən işlər haqqında ətraflı məlumat verib. Nazir fövqəladə halların idarə olunması sahəsində hər iki ölkənin uyğun qurumları arasında əməkdaşlıq münasibətlərinin genişləndirilməsinin qarşılıqlı əhəmiyyət kəsb etdiyini və bu məqsədlə ekspertlər səviyyəsində səfərlərin həyata keçirilməsinin vacibliyini vurğulayıb.



Səmimi görüşə görə təşəkkürünü bildirən Monteneqronun Daxili İşlər naziri Mevludin Nuhodjiç rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə geniş məlumat verib. O, ölkələrimiz arasındakı əlaqələrin hərtərəfli inkişafına toxunaraq, bu çərçivədə fövqəladə hallar üzrə məsul qurumların sıx əməkdaşlıq etməsinin vacibliyindən danışıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər və gələcək əməkdaşlığın perspektivləri, o cümlədən birgə təlim və seminarların keçirilməsi, Monteneqro Daxili İşlər Nazirliyinin fövqəladə hallarla mübarizə sahəsində mütəxəssislərinin ixtisas səviyyəsinin artırılması üçün Azərbaycan FHN-in Akademiyasının imkanlarından istifadə və s. barədə geniş fikir mübadiləsi aparılıb.

Görüşün sonunda "Azərbaycan Respublikası Hökuməti ilə Monteneqro Hökuməti arasında fövqəladə hallar sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanıb. Sazişi Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov və Monteneqronun Daxili İşlər naziri Mevludin Nuhodjiç imzalayıblar.

Görüşdən sonra qonaqlar FHN-in Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin Böhranların idarə edilməsi və Əməliyyat zallarının fəaliyyəti ilə tanış olublar.

# "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 fevral 2019-cu il tarixli Fərmanının icrası ilə bağlı FHN-də görüş keçirilib

***Aprelin 30-da Fövqəladə Hallar Nazirliyinin inzibati binasında "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 fevral 2019-cu il tarixli Fərmanının icrasına məsul olan müvafiq dövlət qurumlarının rəhbər şəxslərinin iştirakı ilə Fərmanın tətbiq olunduğu yaşayış binalarının sifarişçiləri, MTK sədrləri və həmin binalarda yaşayan sakinlərin bir qismi ilə görüş keçirilib.***

Görüşdə Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Samir Nuriyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə baş idarəsinin rəisi Kamran Əliyev, "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov, SOCAR "Azəriqaz" İB-nin baş direktoru Əkbər Hacıyev, "Azərişıq" ASC-nin sədr müavini Ramil Yusifov, Nazirlər Kabineti Kommunikasiya, tikinti və kommunal təsərrüfat məsələləri şöbəsinin müdiri Qasım Abdullayev, Azərbaycan Respublikası Prezidentinin İqtisadi məsələlər üzrə köməkçisinin xidmətinin baş məsləhətçisi Feyruz Mustafayev, FHN-in aidiyyəti rəhbər şəxsləri iştirak ediblər.

Tədbirdə çıxış edən fövqəladə Hallar naziri Kəmaləddin Heydərov "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 fevral 2019-cu il tarixli 529 nömrəli Fərmanının icrasının vəziyyəti barədə danışıb. Nazir qeyd edib ki, bəzi çoxmənzilli yaşayış binalarının istismara qəbulu ilə bağlı mövcud vəziyyət sakinlərin haqlı narazılığına səbəb olaraq, onların mülkiyyət hüquqlarının reallaşdırılmasına əngəllər yaradıb. Vətəndaşların gündəlik problemlərinin həllinə xüsusi həssaslıqla yanaşan ölkə başçısı cənab İlham Əliyev illərdir öz həllini tapmayan bu məsələdə də





qətiyyətli mövqeyini ortaya qoyub. Nazir K.Heydərov sözügedən Fərmanın icrası istiqamətində həm Fövqəladə Hallar Nazirliyi, Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi, "Azərsu" və "Azərişıq" Açıq Səhmdar cəmiyyətləri qarşısında, həm də müvafiq yaşayış binalarının sifarişçiləri qarşısında olduqca mühüm vəzifələr durduğunu xatırladaraq bildirib ki, bu baxımdan Fərmanın icrasına məsul olan dövlət qurumları ilə tikinti fəaliyyəti subyektləri arasında məhsuldar qarşılıqlı əlaqənin təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Bugünkü görüşün də bu məqsədlə təşkil edildiyi və Fərmanın icrası ilə bağlı qarşıya çıxan məsələlərin həlli istiqamətində fikir mübadiləsinin aparılmasının işlərin sürətləndirilməsinə təkan verəcəyi qeyd edilib.

Nazir deyib ki, işlər Fərmanla müəyyən olunmuş zaman çərçivəsində həyata keçirilir və Fərmanda müəyyən olunduğu kimi, ötən 2 ay ərzində respublika üzrə istismarına icazə verilmədən faktiki istismar edilən bütün çoxmənzilli yaşayış binalarında müayinə işləri həyata keçirilib. Müayinələrin nəticəsi olaraq bu kateqoriyaya aid 26 binanın istismara hazır olması barədə müsbət rəy tərtib edilib və aidiyyəti üzrə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim edilib. FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin inzibati binasında müvafiq qurumların səlahiyyətli nümayəndələrinin iştirakı ilə qərargah yaradıldığını xatırladan nazir, bugünə qədər qərargahda 260 yaşayış binasının nümayəndələrinin qəbul edilərək, onlara zəruri izahatlar verildiyini deyib və əlavə edib ki, Fövqəladə Hallar Nazirliyi, "Azərsu" və "Azərişıq" Açıq Səhmdar cəmiyyətləri, "Azəriqaz" İstehsalat Birliyi istənilən dəstəyi göstərməyə hazırdır.

Sonra çıxış edən "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrasına məsul olan aidiyyəti qurumların rəhbər şəxsləri müayinə nəticəsində aşkar edilmiş qüsurlar, mövcud problemlər, onların həlli yolları və işlərin ümumi gedişatı barədə məlumat veriblər. Bildirilib ki, Fərmana uyğun olaraq, növbəti mərhələ kimi 5 ay müddətində çatışmazlıqlar aradan qaldırılmalı və binaların istismara qəbul olunması üçün aidiyyəti üzrə yenidən müraciət olunmalıdır.

Daha sonra istismara hazırlığı baxımından müsbət rəyin verilməsi mümkün olmayan yaşayış binalarının sifarişçilərinin, MTK sədrləri və həmin binalarda yaşayan sakinlərin fikirləri, qarşıya çıxan məsələlərin aradan qaldırılması istiqamətində təklifləri dinlənilib. Çıxış edən şəxslər "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının əhəmiyyətindən danışaraq, mövcud problemlərin aradan qaldırılması ilə bağlı onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

Sonra Fərmanın icrasından irəli gələn məsələlər geniş müzakirə edilib, mövcud problemlərin həlli yolları barədə ətraflı fikir mübadiləsi aparılıb.

# FHN-ə işə qəbulla əlaqədar müsabiqədə iştirak etmiş vətəndaşların nəzərinə!

***Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə sıravi və kiçik rəis heyətinə, gizir və müddətdən artıq həqiqi hərbi xidmətə qəbulla əlaqədar 24-26 aprel 2019-cu il tarixlərində nazirliyin Cənub Regional Mərkəzinin əhatə etdiyi rayonlar üzrə Lənkəran şəhərində, Qarabağ Regional Mərkəzinin əhatə etdiyi rayonlar üzrə Quzanlı qəsəbəsində və Şimal Regional Mərkəzinin əhatə etdiyi rayonlar üzrə Xaçmaz şəhərində keçirilmiş müsabiqədə iştirak etmiş şəxslərlə bağlı müsabiqə komissiyasının rəyinə dair cədvəlləri təqdim edirik.***

Qeyd edək ki, müsabiqədə müvəffəqiyyət qazanmış şəxslər əlavə olunmuş cədvəldə göstərilən tarixdə tibbi şəhadətləndirmə və sənədləşdirmə üçün FHN-in Tibb Xidmətinin Tibb mərkəzində (ünvan: Bakı şəhəri, Biləcəri qəsəbəsi, R.İsmayılov küç., 124) olmalıdırlar. Tibbi şəhadətləndirmə və sənədləşdirməyə gələn şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tərcümeyi-hal;
- şəxsiyyət vəsiqəsinin əsli və notarial təsdiq edilmiş surəti;
- təhsil haqqında sənədin əsli və notarial təsdiq edilmiş surəti;
- hərbi biletin əsli və notarial təsdiq edilmiş surəti;
- evli olanlar üçün: Nikah haqqında Şəhadətnamənin notarial təsdiq edilmiş surəti;
- valideyn və ya qəyyum olanlar üçün: uşaqlarının Doğum haqqında Şəhadətnaməsinin (qəyyumluq haqqında sənədin) notarial təsdiq edilmiş surəti;
- sağlamlıq haqqında arayış (Forma № 086);
- Vərəm Əleyhinə Dispanserdən arayış;
- Dəri-Zöhrəvi Dispanserdən arayış;
- Ruhi Əsəb Xəstəlikləri Dispanserindən arayış;
- Narkoloji Dispanserdən arayış.

***Əlavə məlumat üçün (012) 512-05-92 telefon nömrəsi vasitəsilə əlaqə saxlamaq mümkündür.***

**FHN-in Cənub Regional Mərkəzi (Lənkəran şəhəri), Qarabağ Regional Mərkəzi (Quzanlı qəsəbəsi) və Şimal Regional Mərkəzində (Xaçmaz şəhəri) işə qəbulla əlaqədar 24-26 aprel 2019-cu il tarixlərində keçirilmiş sənəd qəbulu və müsabiqənin nəticələri barəsində Fövqəladə Hallar Nazirliyinin rəsmi internet səhifəsindən (www.fhn.gov.az) və "Fövqəladə Hallar Nazirliyinin qəzeti"nin rəsmi internet səhifəsindən öyrənmək olar.**

# Nazirlər Kabinetində qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyətinə dair iclas keçirilib



***Mayın 2-də Nazirlər Kabinetində qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyətinə dair iclas keçirilib.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazirin müavini Əli Əhmədovun sədrlik etdiyi iclasda müvafiq dövlət qurumlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə müzakirələr aparılıb.

Baş nazirin müavini bildirib ki, Prezident İlham Əliyev bu kateqoriyadan olan vətəndaşlarımızla bağlı məsələni sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Dövlətimizin başçısı tərəfindən verilən tapşırıqlar icra olunur, məcburi köçkünlərin problemlərinin həlli istiqamətində vacib addımlar atılır. Əli Əhmədov paytaxt ərazisində yerləşən məcburi köçkünlərin məskunlaşdığı binaların nəzarətdə saxlanılmasının vacibliyini vurğulayıb.

İclasda paytaxt ərazisində məcburi köçkünlərin məskunlaşdığı binalarda yoxlamalar aparan Fövqəladə Hallar Nazirliyinin arayışı dinlənilib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev bu kateqoriyadan olan insanların kommunal problemlərlə üzləşməməsi üçün hazırda aidiyyəti qurumların komitə ilə birgə xüsusi komissiyanın tərkibində işlədiyini bildirib. Sədr komissiyanın artıq bir neçə binaya baxış keçirdiyini və mövcud vəziyyətlə bağlı rəy hazırladığını deyib.

Bu məsələnin dövlətimizin başçısının nəzarətində olduğunu vurğulayan Baş nazirin müavini komissiyaya qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyəti, həmin binalarda elektrik və qaz xətlərində olan nasazlıqların aradan qaldırılması istiqamətində görülən işlərlə bağlı tez bir zamanda Nazirlər Kabinetinə məlumat verilməsini tapşırıb.

# "Heydər Əliyev Məktəbinin Lektoriyası"nın növbəti toplantısı keçirilib

***Aprelin 30-da Fövqəladə Hallar Nazirliyinin Akademiyasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə "Heydər Əliyev Məktəbinin Lektoriyası"nın toplantısı keçirilib.***

Tədbiri giriş sözü ilə açan Akademiyanın rəisi general-mayor Baba Salayev Ulu Öndərin zəngin həyat yolu və ictimai-siyasi fəaliyyəti haqqında məlumat verərək bildirib ki, Azərbaycan xalqının görkəmli oğlu Heydər Əliyevin irsi olduqca zəngindir: "Heydər Əliyev nadir tarixi şəxsiyyətlərdəndir ki, mükəmməl dövlət quruculuğu konsepsiyasını işləyib reallaşdıra bilib. Azərbaycanı böyük bir fəlakətdən xilas edərək dövrün tələblərinə yüksək dərəcədə cavab verən müstəqil, demokratik dövlət quruculuğu konsepsiyasını hazırlayıb. Azərbaycanın dünyada layiqli yerini tutması üçün uzun illər çalışaraq, müstəqil Azərbaycanın memarı və qurucusu kimi tarixdə yerini tutub".

Akademiyanın rəisi çıxışında qeyd edib ki, Heydər Əliyevin Azərbaycana, regiona və dünyaya ciddi töhfələr verdiyi hamılıqla tanınan faktdır. Onun dövlət quruculuğu kursunu Prezident İlham Əliyev böyük uğurla inkişaf etdirir. Ulu Öndərin əvəzsiz xidmətlərindən biri də Azərbaycan xalqının gələcək tərəqqisini təmin edən İlham Əliyev kimi böyük siyasət xadimini yetişdirməsidir.

Tədbirdə çıxış edən Akademiyanın Humanitar fənlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Fizuli İbrahimzadə ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyətindən, Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən söhbət açaraq qeyd edib ki, ulu öndər Heydər Əliyev öz xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş ən böyük Azərbaycanlıdır.

# FHN-in Dövlət Yanğın Nəzarəti Xidməti seminar-müşavirələr keçirib

***Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin Şimal-Qərb və Qarabağ regional Dövlət Yanğın Nəzarəti idarələri dənli və texniki bitkilərin yığılması, daşınması, saxlanması və emalı dövründə yanğın hadisələrinin qarşısının alınması, eləcə də meşələrin yanğın təhlükəsizliyinin təmin olunması məqsədilə Qəbələ şəhərində və Ağdam rayonunun Quzanlı qəsəbəsində regional seminar-müşavirələr keçirib.***



Rayonların icra hakimiyyətləri, bələdiyyə, Meşə mühafizəsi və bərpası müəssisələri, fermer təsərrüfatları nümayəndələrinin iştirak etdiyi "Dənli və texniki bitkilərin, meşələrin yanğın təhlükəsizliyi" mövzusunda keçirilən regional seminar-müşavirələrdə taxıl yığımına və ot tədarükünə hazırlıq, dənli bitkilərin yetişmə və məhsul yığımı dövründə yanğın təhlükəsizliyi ilə əlaqədar qarşıda duran vəzifələr müzakirə olunub. Həmçinin, meşə və meşə zolaqlarında yanğın təhlükəsizliyinin təmin olunması ilə əlaqədar müvafiq təşkilatlar qarşısında məsələlər qaldırılıb.

# Fövqəladə Hallar Nazirliyində BMT-nin humanitar məsələlərin koordinasiya ofisi və Beynəlxalq Səhiyyə Təşkilatının təmsilçilərindən ibarət qiymətləndirmə qrupu ilə görüş keçirilib

***Mayın 2-də Fövqəladə Hallar Nazirliyində nazir müavini general-leytenant Etibar Mirzəyevlə ekspert Roberto Kolancelonun rəhbərlik etdiyi BMT-nin Humanitar məsələlərin koordinasiya ofisi və Beynəlxalq Səhiyyə Təşkilatının təmsilçilərindən ibarət qiymətləndirmə qrupu arasında işçi görüş keçirilib.***



4-9 noyabr 2019-cu il tarixlərində Bakı şəhərində keçirilməsi planlaşdırılan beynəlxalq regional təlimə hazırlıq məqsədi ilə təşkil olunan bu görüşdə təlimin ssenari layihəsi, məqsədləri və fəaliyyət planı müzakirə edilib. Tədbirdə Fövqəladə hallar zamanı idarəetmə, Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq təşkilatlar, eləcə də hökumət və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı fəaliyyətin təşkili sahəsində fikir mübadiləsi aparılıb.

Nazir müavini Etibar Mirzəyev Fövqəladə Hallar Nazirliyinin fəaliyyəti və fövqəladə hallar zamanı milli idarəetmə sistemi haqqında qonaqlara ətraflı məlumat verib. O, fövqəladə hallar sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və beynəlxalq humanitar əməliyyatlarda Azərbaycan Respublikasının təmsil olunması məqsədi ilə Beynəlxalq Axtarış-xilasetmə dəstəsinin yaradıldığını diqqətə çatdırmaqla yanaşı, qeyd olunan təlimin Beynəlxalq dəstənin Beynəlxalq Axtarış Xilasetmə Məşvərət Qrupunun (İNSARAG) sinifləndirilməsindən keçirilməsinə hazırlığında mühüm rol oynayacağını bildirib.

Ekspert qrupunun rəhbəri Roberto Kolancelo səmimi qəbula görə təşəkkür etməklə yanaşı, əməkdaşlığın inkişaf etdirilməsi və beynəlxalq regional təlimin hazırlığı sahəsində birgə səylərin yüksək nailiyyətlərin əldə olunmasına öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Tərəflər həmçinin beynəlxalq regional təlimin keçirilməsinin təcrübə mübadiləsi və əməkdaşlığın daha da inkişaf etdirilməsində mühüm rol oynayacağını qeyd ediblər.

Səfər çərçivəsində həmçinin ekspert qrupu nazirliyin Mülki müdafiə qoşunlarının, Xüsusi Riskli Xilasetmə Xidmətinin, FHN Akademiyasının, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin və Bakı Regional Mərkəzinin fəaliyyəti ilə yaxından tanış olublar.







# Sumqayıtda keçirilən dəyirmi masa "İcra hakimiyyəti orqanları, bələdiyyə orqanları və fövqəladə hallar komissiyası arasında fövqəladə hallar sahəsində koordinasiyanın təkmilləşdirilməsi" mövzusuna həsr olunub

***Fövqəladə Hallar Nazirliyinin Sumqayıt Regional Mərkəzi Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində "İcra hakimiyyəti orqanları, bələdiyyə orqanları və fövqəladə hallar komissiyası arasında fövqəladə hallar sahəsində koordinasiyanın təkmilləşdirilməsi" mövzusunda dəyirmi masa keçirib.***



Dəyirmi masada Fövqəladə Hallar Nazirliyinin müvafiq struktur bölmələrinin nümayəndələri, Sumqayıt Şəhər İcra Hakimiyyətinin, yerli özünüidarəetmə və icra orqanlarının, zavod və fabriklərin rəhbər şəxsləri, Abşeron və Xızı rayonlarının icra hakimiyyəti və bələdiyyələrinin məsul şəxsləri iştirak edib.

Tədbiri giriş sözü ilə açan FHN-in Sumqayıt Regional Mərkəzinin rəisi polkovnik Adil Hacıyev şəhər və rayon İcra hakimiyyətləri ilə qarşılıqlı fəaliyyətin hazırki vəziyyəti, mövcud əlaqələr, görülmüş işlər və qarşıda duran vəzifələr barədə geniş məlumat verib.

Sonra tədbirdə Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini - şəhər fövqəladə hallar komissiyasının sədri Teymur Səmədov fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması zamanı itkilərin və dəyən ziyanın minimuma endirilməsində birgə fəaliyyətin müstəsna əhəmiyyətini vurğulayıb, bu sahədə Sumqayıt Regional Mərkəzi ilə qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərildiyini diqqətə çatdırıb.

Daha sonra tədbirdə Regional Mərkəzin və Fövqəladə Hallar Nazirliyinin yerli qurumlarının əməkdaşları "Xidməti ərazidə keçirilən monitorinqlərin əsas məqsədi təhlükə xarakterli əraziləri nəzarətdə saxlayaraq baş verə biləcək təhlükələrin vaxtında qarşısının alınmasıdır", "Mülki müdafiənin mühafizə qurğuları", "Yanğın təhlükəsizliyinin təmin olunması", "Sumqayıt şəhərində baş verən yanğınların vaxtında söndürülməsinə mane olan səbəblər və onların həlli yolları", "Sənaye təhlükəsizliyi iqtisadi inkişafın əsas amilidir" və "Çimərlik mövsümünə hazırlıqla əlaqədar keçirilən tədbirlər və mövcud problemlər" mövzularında məruzələr ediblər.

Məruzələrdə işıq, su və elektrik şəbəkələrinin mühafizə zonalarında qeyri-qanuni aparılan tikintilərin qarşısının alınması, məhəlləətrafı və məhəllədaxili yolların vəziyyəti və onların saz vəziyyətdə saxlanılması, məişət tullantılarının idarə olunması, binaların lift təsərrüfatının vəziyyətinə nəzarət, çimərlik zonalarının məişət tullantılarından təmizlənməsi, tüstü bacalarının mütəmadi monitorinqi və profilaktik tədbirlərin görülməsi, yanğınların baş vermə səbəbləri və nəticələri, onların söndürülməsində yaşayış massivlərindəki qeyri-qanuni maneələr, parklanmalara nəzarət, mülki müdafiə sahəsində problem və çatışmazlıqların aradan qaldırılması yollarının müzakirəsi kimi məsələlərə toxunulub.

# Sağlam həyat tərzi naminə

***Fövqəladə Hallar Nazirliyinin Akademiyasında "Narkotik cinayətkarlığa qarşı mübarizə və sağlam həyat tərzi" mövzusunda maarifləndirmə tədbiri keçirilib.***

Tədbiri giriş sözü ilə açan Akademiyanın rəisi general-mayor Baba Salayev qeyd edib ki, müasir dünyada cəmiyyəti narahat edən problemlər içərisində ən mürəkkəbi, faciəvi nəticələrə gətirib çıxaran narkomaniya və narkobiznesdir. Narkomaniya təkcə insanların sağlamlığına, mənəviyyatına deyil, həm də gənclər və yeniyetmələr arasında narkotiklərə aludəçilik halları yüksələn xətlə artmağa doğru gedir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra narkotizm probleminə qarşı mübarizə tədbirləri görülməsinin vacibliyi ön plana çıxıb.

Akademiyanın rəisi bildirib ki, bəşəriyyətin bu dəhşətli bəlasına qarşı ayrı-ayrı dövlət strukturları, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri, hüquq-mühafizə orqanları, təhsil və səhiyyə işçiləri birgə mübarizə aparmaqla onun qismən də olsa yayılmasının və kütləvi hal almasının qarşısını ala bilir.





Tədbirdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməliyyat müvəkkili baş polis leytenantı Nadir Məmmədov və İctimai Səhiyyə və İslahatlar Mərkəzinin həkimi Lətafət Dadaşova respublikada narkomaniyanın yayılmasına səbəb olan amillər, dövlət səviyyəsində narkomaniyaya qarşı mübarizədə hüquq mühafizə orqanlarının və səhiyyə işçilərinin qarşısında duran vəzifələrdən bəhs ediblər.

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş mini futbol çempionatına yekun vurulub

***29 aprel - 3 may tarixlərində Fövqəladə Hallar Nazirliyinin İdman-sağlamlıq klubunun stadionunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş mini futbol çempionatı keçirilib.***









Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının və İdman-sağlamlıq klubunun birgə təşkilatçılığı ilə keçirilən çempionatda 15 komandadan 150-yə yaxın idmançı iştirak edib. Çempionatın baş hakimi Elmir Quluzadə olub.

Komandalar 4 qrupa bölünüb və 4 qrupdan 1-ci və 2-ci yerləri tutanlar növbəti tura vəsiqə qazanıb. 3-cü yer uğrunda keçirilən görüşdə FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin komandası Kiçik Həcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinə qalib gələrək çempionatın bürünc medalına sahib çıxıb.

Finalda isə FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin komandası Maddi- Texniki Təchizat İdarəsinin komandasına qalib gələrək çempionatın qalibi olub. Çempionatda ən yaxşı qapıçı Rəşad Səttarzadə, ən çox qol vuran Turxan Quliyev, ən yaxşı oyunçu isə Asif Zeynalov olub.

Mükafatlandırma mərasimində çıxış edən Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov və Fövqəladə Hallar Nazirliyi İdman-sağlamlıq klubunun rəisi polkovnik Füzuli Musayev Ulu Öndərin keçdiyi şərəfli və mənalı həyat yoluna tarixi-xronoloji nəzər salaraq qeyd ediblər ki, Azərbaycanın otuz ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi Heydər Əliyevin adı ilə sarsılmaz tellərlə bağlıdır. Qeyd olunub ki, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz Ümummilli Liderin adı ilə bağlıdır. Natiqlər ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin dövlətimizin və xalqımızın rifahı naminə gördüyü mühüm işlərdən danışıblar.

Sonra qaliblərə kubok, medal və qiymətli hədiyyələr təqdim olunub.

# Gənc xilasedici və yanğınsöndürənlərin zona birinciliyi yekunlaşdı





***Fövqəladə Hallar Nazirliyi Xüsusi Riskli Xilasetmə Xidmətinin bazasında "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının Bakı şəhəri üzrə zona birinciliyi keçirilib və bununla da zona birinciliklərinə yekun vurulub.***

Birincilikdə Bakı şəhəri ilə yanaşı, Sumqayıt şəhərinin, Abşeron rayonunun da məktəbliləri qüvvələrini sınayıb. Birincilikdə 17 məktəbin komandası iştirak edib.

Tədbirin açılış mərasimində çıxış edən FHN Xüsusi Riskli Xilasetmə Xidməti rəisinin birinci müavini general-mayor Məhərrəm Həsənov, FHN İctimaiyyətlə əlaqə idarəsinin rəis müavini polkovnik Məhbubə Mustafayeva yarışların yeniyetmələrin, gənclərin fövqəladə hallara hazırlıq səviyyəsinin yüksəldilməsi, məktəblilərdə şəxsi təhlükəsizliklə bağlı məsuliyyət hissinin artırılması, gənc nəslə hərbi vətənpərvərlik ruhunun və sağlam həyat tərzinin aşılanmasında böyük rol oynadığını bildirib.

Yarışlar "Yanğın estafeti", "Maneələr zolağı", "Gənc ekspertlər" üzrə üç mərhələdə keçirilib. Gərgin mübarizə və sağlam rəqabət şəraitində keçirilmiş yarışlarda komandalar münsiflər heyəti tərəfindən qiymətləndirilərək qaliblər müəyyən edilib.

Bakı şəhəri Yasamal rayonunun 31 nömrəli orta məktəbinin komandası I, Bakı şəhəri Nizami rayonunun 220 nömrəli orta məktəbinin komandası II, Zəngi liseyinin komandası isə III yerə layiq görülüb. Yarışda ilk 3 yeri tutmuş komandalar, həmçinin, Sumqayıt şəhəri 43 nömrəli orta məktəbin komandası "Gənc xilasedici və yanğınsöndürən" yarışları üzrə respublika birinciliyində iştirak etmək hüququ qazanıb.

Qalib gəlmiş komandalar kubok və diplomlarla mükafatlandırılıb.

Qeyd edək ki, VIII "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının respublika birinciliyinin final mərhələsi 23-30 iyun tarixlərində Qəbələ rayonunda keçiriləcəkdir.

***Fövqəladə Hallar Nazirliyinin Qarabağ Regional Mərkəzində "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının zona birinciliyində FHN-nin yerli qurumlarının, Ağdam rayon İcra Hakimiyyətinin, Ağdam rayon Gənclər və İdman İdarəsinin və Ağdam rayon Təhsil Şöbəsinin nümayəndələri iştirak ediblər.***

Kombinə edilmiş yanğın estafeti və maneələr zolağı adlı mərhələlərdən ibarət olan yarışda məktəblilər qüvvələrini sınayıblar. Şuşa rayon 19 nömrəli tam orta məktəbinin komandası I, Ağdam rayonu Quzanlı qəsəbə tam orta məktəbinin komandası və Ağcabədi rayonu Ş. Hüseynov adına şəhər 2 nömrəli tam orta məktəbinin komandası isə müvafiq olaraq II və III yerə layiq görülüb. Birinci yerin sahibi olan Şuşa rayon 19 nömrəli tam orta məktəbinin komandası ümumrespublika final yarışlarında iştirak etmək hüququ qazanıb.

Yarışda fərqlənən komandaların üzvləri diplom və fəxri fərmanlarla təltif ediliblər.

***Fövqəladə Hallar Nazirliyinin Şimal Regional Mərkəzinin əhatə etdiyi ərazidə yerləşən şəhər və rayonların məktəbləri arasında "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının zona birinciliyi keçirilib.***

Əvvəlcə, yarış iştirakçıları Mərkəzin həyətində ümummilli lider Heydər Əliyevin xatirəsinə ucaldılmış abidənin önünə gül-çiçək dəstələri düzüblər.

Yarışa şəhər və rayonlardan 5 komanda qatılıb. Gərgin və şəffaf keçən estafetlərdə gənclər öz bilik və bacarıqlarını nümayiş etdiriblər. Mərhələlər üzrə toplanan ümumi xalların nəticəsinə görə, Quba rayonu Qaraçay kənd tam orta məktəbinin komandası I, Siyəzən şəhər 2 nömrəli tam orta məktəbin komandası II, Şabran şəhər 4 nömrəli tam orta məktəbin komandası isə III yerə layiq görülüb. Komandalar göstərdiyi yüksək nəticələrə görə kuboklarla, fəxri fərmanlar və qiymətli hədiyyələrlə təltif olunublar.

Qalib olan Quba rayonu Qaraçay kənd tam orta məktəbin komandası "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının respublika birinciliyində iştirak etmək hüququ əldə edib.

***Fövqəladə Hallar Nazirliyinin Aran Regional Mərkəzinin əhatə etdiyi ərazidə yerləşən şəhər və rayonların məktəbləri arasında "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının zona birinciliyi keçirilib.***

Yarışa şəhər və rayonlardan 10 komanda qatılıb. Mərhələlər üzrə toplanan ümumi xalların nəticəsinə görə, Ucar rayonu Qazıqumlaq kənd Sadiq Salahov adına1 nömrəli tam orta məktəbinin komandası I, Yevlax şəhəri Səməd Vurğun adına 5 nömrəli tam orta məktəbin komandası II, Mingəçevir şəhər 19 nömrəli tam orta məktəbin komandası isə III yerə layiq görülüb. Komandalar göstərdiyi yüksək nəticələrə görə kuboklarla, fəxri fərmanlar və qiymətli hədiyyələrlə təltif olunublar.

Qalib olan Ucar rayonu Qazıqumlaq kənd Sadiq Salahov adına 1 nömrəli tam orta məktəbin komandası "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının respublika birinciliyində iştirak etmək hüququ əldə edib.

***Fövqəladə Hallar Nazirliyinin Cənub Regional Mərkəzinin əhatə etdiyi rayonların təhsil müəssisələri arasında "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının zona birinciliyində Lənkəran rayon V.Qasımov adına Digah kənd tam orta məktəbin komandası I yeri, Masallı rayonu Qəriblər kənd tam orta məktəbin komandası II yeri, Cəlilabad şəhər 2 nömrəli tam orta məktəbin komandası isə III yeri tutub.***

Birinci yeri tutan komanda "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının respublika mərhələsində iştirak etmək hüququ əldə edib.

***Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin əhatə etdiyi rayonların təhsil müəssisələri arasında "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının zona birinciliyi keçirilib.***

Yarış "Kombinə edilmiş yanğın estafeti", "Maneələr zolağı" və "Komandaların təqdimatı" adlı üç mərhələdən ibarət olub.

Gərgin mübarizə şəraitində keçən yarışların yekunlarına əsasən, Şamaxı rayonu Elxan Rzayev adına Mədrəsə kənd tam orta məktəbi I yeri, Qax şəhəri 2 nömrəli tam orta məktəb-liseyi II yeri, Oğuz şəhər 1 nömrəli tam orta məktəbi isə III yeri tutub.

Birinci yeri tutan komanda "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının respublika mərhələsində iştirak etmək hüququ əldə edib.

# FHN-in Akademiyasında intellektual bilik yarışması keçirilib

***Aprelin 27-də Fövqəladə Hallar Nazirliyinin Akademiyasında "Xəmsə" intellektual oyunları və Akademiyanın Tələbə Elmi Cəmiyyətinin birgə təşkilatçılığı ilə "Xəmsə" intellektual bilik yarışması keçirilib.***

Bilik yarışmasında Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Daxili İşlər Nazirliyinin Polis Akademiyası, Heydər Əliyev adına Ali Hərbi Məktəbi, Bakı Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dövlət İdarəçilik Akademiyasının komandaları iştirak edib.

Yarış iştirakçıları əvvəlcə FHN-in Akademiyasının Heydər Əliyev Mərkəzi ilə tanış olublar.

Bilik yarışmasının keçirilməsinin məqsədi gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onların bilik və elmi nüfuzunu artırmaq və vətənpərvərlik hissini gücləndirməkdir.

Yarışda hər birində dörd komanda olmaqla iki qrup üzrə bölünüb və komandaların tərkibi beş iştirakçıdan ibarət olub. Maraqlı və gərgin mübarizə şəraitində keçən yarışın final mərhələsində uğurla çıxış edən Azərbaycan Dövlət İqtisad Universiteti qalib adına layiq görülüb. Daxili İşlər Nazirliyinin Polis Akademiyası ikinci, üçüncü yerə isə Bakı Ali Neft Məktəbi vəsiqə qazanıb.

Qalib komandalar kubok, medal və diplomla mükafatlandırılıb.

# Maarifləndirmə tədbirləri davam etdirilir

***Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti Bakı Regional Mərkəzi ilə birgə paytaxtın Yasamal rayonu E.Məmmədov adına 21 saylı tam orta məktəbində maarifləndirmə tədbiri keçirib.***

Tədbirdə ərazinin daim təmiz vəziyyətdə saxlanılması, normativ sənədlərə uyğun ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməsi, yanğın zamanı insanların binadan köçürülməsi (təxliyə) planlarının və hər bir sinif otağı üçün yanğın təhlükəsizliyi qaydalarına aid yaddaş kitabçalarının tərtib olunaraq müvafiq yerlərdən asılması, pilləkən qəfəsliklərində əlavə otaqların quraşdırılmasının yolverilməzliyi, yanğına qarşı su təchizatına (hovuzlar , kəmərlər, çənlər, hidrantlar) qayğı ilə yanaşılmasının vacibliyi qeyd edilib. Həmçinin, "Yanğın təhlükəsizliyi qaydalarına riayət edin", "Dəm qazı təhlükəsi", "Məişətdə yanğın təhlükəsizliyi", "112" qaynar xətti" və "Odsöndürənlərdən istifadə qaydaları" adlı videoçarxlar nümayiş olunub.

Tədbirdə ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları əyani olaraq nümayiş edilib, yanğına qarşı təbliğat işində istifadə olunması üçün "Vətəndaşların nəzərinə", "Yanğın zamanı davranış qaydaları" mövzularında yaddaş vərəqələri, bukletlər iştirakçılara paylanılıb.

***

***Fövqəladə Hallar Nazirliyinin Aran Regional Mərkəzi Yevlax rayon 1 nömrəli tam orta məktəbində FHN-in regionda fəaliyyət göstərən digər qurumları ilə birgə "Fövqəladə hallarla bağlı davranış qaydaları" mövzusunda maarifləndirmə tədbiri keçirib.***

Tədbirdə "Fövqəladə halların təsnifatı", "Zəlzələ zamanı necə davranmalı?", "Sel və daşqınlar zamanı davranış qaydaları", "Odsöndürücü balonlardan istifadə qaydaları", "Məişətdə yanğın", "Dəm qazı təhlükəsi" və "112" qaynar telefon xətti" mövzularında çıxışlar edilib.

***

***Fövqəladə Hallar Nazirliyinin Cənub Regional Mərkəzi FHN-in regionda fəaliyyət göstərən digər qurumları ilə birgə Lerik rayon Günəşli kənd tam orta məktəbində "Fövqəladə hallarla bağlı davranış qaydaları" mövzusunda maarifləndirmə tədbiri keçirib.***

Tədbirdə FHN-in Cənub Regional Mərkəzinin, Cənub Regional Dövlət Yanğın Nəzarəti İdarəsinin, Təhsil şöbəsinin əməkdaşları və məktəbin kollektivi iştirak edib.

Toplantıda təbii və texnogen xarakterli fövqəladə hadisələr zamanı düzgün davranış, ilkin yanğınsöndürmə avadanlıqları və fərdi mühafizə vasitələrindən istifadə qaydalarına dair məruzələr edilib, dəm qazı təhlükəsinin qarşısının alınması yolları barədə, eyni zamanda "112" qaynar xətti" haqqında məlumat verilib, mövzulara dair fotoslaydlar nümayiş olunub.

Daha sonra təhsil müəssisələrinin təxliyə planlarının düzgün hazırlanmasının, yanğın və texniki təhlükəsizlik tədbirlərinə əməl edilməsinə nəzarətin artırılmasının, ehtiyat çıxış qapılarının və zirzəmilərin daim istifadəyə yararlı vəziyyətdə saxlanılmasının, ilkin yanğınsöndürmə vasitələri ilə təchiz olunmasının vacibliyi diqqətə çatdırılıb.

Sonda tədbir iştirakçılarına videoçarx nümayiş olunub, maarifləndirici yaddaş kitabçaları və xəbərdarlıq vərəqələri paylanılıb.

## Allah rəhmət eləsin

FHN Fövqəladə halların xəbərdar edilməsi və daxili təhlükəsizlik Baş idarəsinin kollektivi iş yoldaşları **Elçin Adıgözəlova atası**

**ŞİRXAN ADIGÖZƏLOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Fövqəladə Hallar Nazirliyinin Akademiyasının kollektivi iş yoldaşları **Ruslan Şəmiyevə atası**

**ƏMRAH ŞƏMİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi: Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi

Həftəlik ictimai-siyasi qəzet

Redaksiyanın ünvanı: AZ 1033 Bakı şəhəri, Əliyar Əliyev küçəsi, 3
Tel: 566-86-70
566-86-74
566-86-79
Faks: 566-86-71

Qəzet Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi 1873

ABB Nəsimi filialı
Kodu: 805614 VÖEN: 9900001841
Müxbir hesab: 0137010002944
S. W. İ. F. T. Bik:İBAZAZ2X
H/h N-si: 33308019949711933207
VÖEN: 1400976751

"Fövqəladə Hallar Nazirliyinin qəzeti" -nin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "CBS Polygraphic Production" nəşriyyatında çap edilmişdir
İndeks 0572
Tiraj 1 024